Proqrama əsasən İKT-nin tətbiqi üzrə Məlumat və Resurs Mərkəzinin yaradılması ilə bağlı iş aparılacaq. Mərkəz şəbəkə idarəedilməsi, kompüter şəbəkələrinin təhlükəsizliyi, intranet xidmətlərinin işlənilməsi və tətbiq olunması, yeni texnologiyalar sahəsində araşdırmaların aparılması və müvafiq treninqlərin təşkili üzrə fəaliyyət göstərəcək.

Eyni zamanda ölkəmizin ən qabaqcıl təhsil müəssisələrində Elektron məktəb tipli pilot layihələrin həyata keçirilməsi də nəzərdə tutulub. Bu layihələrin əsas məqsədi "Bir müəllim bir kompüter-Bir şagird bir kompüter" prinsipinə nail olmaqla təhsilə İKT-nin tətbiqini sürətləndirməkdir.

Məlumat üçün onu da qeyd edək ki, 2009-cu ildən başlayaraq yuxarıda sadalanan tədbirlərin ölkəmizin digər şəhər və kənd bölgələrində yerləşən təhsil müəssisələrinə tətbiqi planlaşdırılır.